# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №05 (45) • 07.02.2011

AzadliqRadiosu.az

**Misirdə hakim partiyanın rəhbərliyi istefa verdi** səh.2

**Saakaşvilinin anası Bakıda** səh.4

**Парламент Азербайджана «атакует» Запад** səh.7

**Hökumətimizin qoca nazirləri** səh.9

**Azərbaycanda qiymət artımı** səh.10

**Nazirliklərdən çıxarılanlar kimlərdir?** səh.11

**Saatı 2 manata naturaçı...** səh.13

**«Dərmana 500 manat pul vermişəm»** səh.14

## Hakimiyyətdə antikorrupsiya həftəsi



- Samir Şərifov: **«Əsassız yoxlamalar aparılmamalıdır»**
- Vergi və Səhiyyə nazirləri də korrupsiyadan danışdı
- **Əbülfəs Qarayev də iclas keçirib**
- Zakir Qaralov: «Özümüzdən başlamalıyıq»

səh.5,6,8

## Mehman Əliyev gizli səbəbdən danışır

*Rəsmilərin bir-birinin ardınca qüsurlardan danışmasına "Turan" agentliyinin rəhbəri M.Əliyev tamam fərqli izah verir:* "Keçən ilin oktyabrında Dünya Bankı ilə Azərbaycan hökuməti arasında 4 illik bir proqram imzalanıb. Həmin proqram bir sıra islahatlar, antikorrupsiya, şəffaflıq, sahibkarlığın, azad iqtisadiyyatın inkişafı və sair məsələləri nəzərdə tutan böyük bir layihədir. Sadəcə, hökumət bu proqramı xalqdan gizlədir".

səh.8

Havada




**Hüsnü Mübarəkin Xırdalandakı heykəli fitə basıldı** səh.2

**AXCP üzvü həbs edilib** səh.2

**Məhkəmə Cəlal Əliyevin 23 milyonluq iddiasını təmin etdimi?** səh.4

# Misirdə hakim partiyanın rəhbərliyi istefa verdi


Misirdə müxalifət fəalı prezident tərəfdarlarının atdığı daşlardan başını qazanla qoruyur, 5 fevral 2011

**AZADLIQRADİOSUNUN MÜXBİRLƏRİ AZAD EDİLDİ**

AzadlıqRadiosunun Praqadakı baş ofisinin Misirdə həbs edilmiş müxbirləri fevralın 5-də azad edilib. Radionun hər ikisi Britaniya vətəndaşı olan iki müxbiri bir gün öncə Qahirədə həbs edilmişdilər. Misirdə baş verən inqilabı işıqlandırmağa getmiş müxbirləri polisin müşayiətində hava limanına aparıb, oradan təyyarə ilə geri yola salıblar. Müxbirlər son bir gündə onlara məlum olmayan yerdə saxlandıqlarını, amma pis rəftarla üzləşmədiklərini deyirlər.

**PREZİDENTİN OĞLU DA DAXİL OLMAQLA HAKİM PARTİYANIN RƏHBƏRLİYİ DƏYİŞİB**

Qərb agentlikləri Misirdəki mənbələrə istinadla xəbər verirlər ki, Misir prezidenti Hüsnü Mübarəkin oğlu hakim Milli Demokrat Partiyasının sədrliyindən istefa verib. Agentliklər əvvəlcə prezidentin özünün də partiya sədrliyindən istefa verdiyini yazıblar, amma sonradan bu məlumat təsdiq edilməyib.

Hakim partiyaya yeni seçilən Baş katib Hossam Badrawi partiyada liberal qanadın təmsilçisi sayılır.

# İslamçı müxalifətlə hakimiyyət dialoqa başlayır

Misirdə müxalifətdə olan "Müsəlman Qardaşları" hərəkatının liderləri ölkədə yaranmış siyasi böhranla bağlı bu gündən hakimiyyətlə dialoqa başlayır. Hərəkatın nümayəndəsinin verdiyi məlumata görə, danışıqlar vitse-prezident Ömər Süleymanla aparılacaq. Şənbə günü Qahirənin mərkəzində prezident Hüsnü Mübarəkin istefası tələbilə etiraz aksiyası keçirilib. Amma bu dəfə aksiyaya əvvəlki günlərlə müqayisədə az adam çıxıb.

# Mübarəkin Xırdalandakı heykəli fitə basıldı



*Dünən saat 14:00 radələrində bəzi müxalif partiya və müstəqil gənclər təşkilatlarının 30-a yaxın fəalı Xırdalandakı " Misir-Azərbaycan dostluq" parkında etiraz aksiyası keçiriblər. Aksiya iştirakçıları «Qaz, işıq, su qalxdı. Millət palçığa batdı», «Dictator Exit (Diktator get)», «İnqilabınız Mübarək», «Let Egyptians free and luck. Be off Hosni Mubark (Misirlilərin azad və xoşbəxt olmasına icazə ver. Çıx get, Hüsnü Mübarək!) kimi şüarlar səsləndiriblər.*

Aksiya iştirakçıları Hüsnü Mübarəkin heykəlini fitə də basıblar. Aksiya cəmi bir dəqiqə çəkib. Gənclər polislər hadisə yerinə gələnə qədər aksiyanı başa çatdırıb parkdan uzaqlaşıblar. Aksiyaya görə saxlanan olmayıb.

***Maarif Çingizoğlu***



# AXCP üzvü həbs edilib

*Fevralın 5-i axşam saatlarında AXCP Gənclər Komitəsinin üzvü Cabbar Savalan Sumqayıtda həbs edilib. AXCP Gənclər Komitəsinin sədri Əbülfəz Qurbanlının AzadlıqRadiosuna verdiyi məlumata görə, onun üstündən 0, 17 qram narkotik maddə tapıldığı bildirlir. Hazırda o, Sumqayıt Şəhər Polis İdarəsində saxlanılır. Əbülfəz Qurbanlının bildirməsinə görə, «20 Yanvar» hadisələrinin 21-ci ildönümündə Şəhidlər Xiyabanını ziyarət zamanı polislə müxalifətçilər arasında baş verən qarşıdurmadan sonra o, izləndiyini deyirmiş.*

*Əbülfəz Qurbanlı Cabbar Savalanın cibindən narkotik maddə çıxmasını qurama məsələ sayır:* «Bu birbaşa bizim gənclər komitəsinin və Cabbar Savalanın fəallığı ilə bağlıdır». Cabbar Savalan 1991-ci ildə Sumqayıtda anadan olub. Sumqayıt Şəhər Polis İdarəsindən Cabbar Savalanın ötən gecə saxlandığını təsdiqləyiblər. Amma polis idarəsi əlavə məlumat verməkdən imtina edib.

Cabbar Savalan haqqında Cinayət Məcəlləsinin 234.1 maddəsi ilə (Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama) cinayət işi açılıb. Bu maddəyə görə, üç ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Bu barədə AzadlıqRadiosuna Sumqayıt Polis İdarəsindən məlumat verilib.

Cabbar Savalanın vəkillərinin AzadlıqRadiosuna dediyinə görə, çoxsayılı cəhdlərinə baxmayaraq, Sumqayıt polisi onlara müdafiə etdikləri şəxslə görüşünə icazə verməyib. Cabbar Savalanı iki vəkil-Əsabəli Mustafayev və Anar Qasımov müdafiə edir. Vəkil Əsabəli Mustafayev deyir ki, bu, ciddi qanun pozuntusudur. Hazırda vəkillər yaranmış vəziyyətlə bağlı Sumqayıt Şəhər Prokurorluğuna müraciət hazırlayırlar.

***Maarif Çingizoğlu***

# "Müsavat və AXCP-nin mənimlə görüşməməsini unutmayacam"


Pedro Agramunt

**Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə həmməruzəçiləri Pedro Agramunt və Joseph Debono Grech Bakı İstintaq Təcridxanasında saxlanılan "Реальный Азербайджан" və "Gündəlik Azərbaycan" qəzetlərinin baş redaktoru ilə görüşüblər. Onlar jurnalistlə yarım saat söhbət edib, onun işi ilə tanış olduqlarını deyirlər. Fevralın 3-də Azərbaycana üçgünlük səfərlərinin yekunları ilə bağlı mətbuat konfransı keçirən həmməruzəçilər rəsmi qurumlarla bütün görüşlərdə də Eynulla Fətullayevin işini müzakirə etdiklərini deyirlər.**

Pedro Agramuntla görüşdə rəsmilər deyib ki, jurnalsitə əvvəlki ittihamlarla bağlı Avropa Məhkəməsinin qərarı yerinə yetirilib, jurnalist azad olunub, amma onun haqqında ikinci - yeni idda irəli sürülüb, jurnalist həmin iddiaya görə həbsdədir.

**10 İLDƏ CƏMİ BİR HESABAT**

*Pedro Agramunt bildirir ki, onlar bürün məsələləri hazırlayacaqları hasabatda qeyd edəcəklər. Amma hesabat nə vaxt hazır olacaq sualına həmməruzəçilərdən heç biri konkret cavab verməyib:*

- Mən bilmirəm. 10 il ərzində Azərbaycanla bağlı cəmi bir hesabat hazırlanıb. İlk hesabat 2005-ci ildə hazırlanıb. Biz tez bir zamanda hesabat hazırlamağa çalışacağıq, amma 10 ilə bir hesabat hazırlandığından vəziyyət o qədər də sadə deyil.

**"MÜSAVAT VƏ AXCP-nin MƏNİMLƏ GÖRÜŞMƏMƏSİNİ UNUTMAYACAM"**

*Pedro Agramuntun Müsavat və AXCP-nin onunla görüşdən imtina etməsi məsələsinə də münasibət bildirib. Dediyinə görə, ötən ilin oktyabrında müxalifət partiyalarının görüşdən imtina etməsi onu təəccübləndirb, amma noyabrda gələndə görüş baş tutub:* "Mən onlardan soruşanda ki, niyə əvvəlki görüşə gəlməmişdiniz, onlar dedilər bu bizim strategiyamızdır. İndi bu strategiya mənə aydın deyil. Bilirəm ki, bu onların strategiyası olduğundan bu dəfə görüşə gəlməyiblər. Amma hesab edirəm belə bir görüş hökmən olmalıdır. Şəxsən mənimlə onlar ikinci dəfədir belə hərəkət edirlər. Mən bunu yadımdan çıxarmıyacam. Amma indi bu dəqiqə görüşmək istəsələr mən hazıram".

Həmməruzəçilər "Qarabağ" blokuna daxil olan "Ümid", Demokrat, Ziyalılar partiyalarının təmsilçiləri ilə görüşüblər. Dediklərinə görə, Prezident Administrasiyası ilə görüşləri olmayıb.

**AZƏRBAYCANDA SİYASİ MƏHBUS SİYAHISI YOXDUR?**

Azərbaycanda siyasi məhbuslarla bağlı suala gəldikdə Pedro Agramunt bildirdi ki, onlar görüşdükləri bütün tərəflərdən siyasi məhbusların siyahısını istəyiblər, amma indiyə qədər onlara belə bir siyahını verən olmayıb. Pedro Agramunt bildirdi ki, onlar Azərbaycan parlamentindən xahiş ediblər ki, ölkənin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin necə yerinə yetirlməsi ilə bağlı müfəssəl bir sənəd hazırlasınlar.

# «Çanaq antenalarının sökülməsinə start verildi»




«Bizim yol» qəzeti yazır ki, «Çanaq antenalarının sökülməsinə start verildi». «Dünən paytaxtda apardığımız araşdırmalar zamanı peyk antenaların söküntüsünə start verildiyinin şahidi olduq. Bakının mərkəzi küçələrindəki binalardan çanaq antenalarının yığışdırılmasına göstəriş verilib. Sökülən antenalar da var. Amma hələ ki, kütləvi şəkildə bu qərar icra olunmur. Göstərişi icra edən dövlət qurumlarının nümayəndələri çanaq antenaların binaların fasadında ciddi problemlər yaratdığını iddia edirlər».

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Metyu Brayza: **«Prioritetim Qarabağ münaqişəsinin həlli olacaq"**


**Neft Fondu puldan pul düzəldir**


Elmira Axundova: **«Hər şeyi pul həll edir»**


**Dünyada piylənmə artır, qan təzyiqi isə düşür**


«Azərbaycanfilm»: **«Qisas almadan qayıtma»**

# Məhkəmə Cəlal Əliyevin 23 milyonluq iddiasına baxdı



**Fevralın 4-də 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsi akademik Cəlal Əliyevin pul və əmlak iddiasını təmin edib. Qətnaməyə görə, Cəlal Əliyevin keçmiş biznes ortaqları Sədiyar Zeynalov və sonuncunun həyat yoldaşı Şəhla Zeynalova ona 23 milyon dollar ödəməlidilər. Hələ üstəlik, vaxtilə ortaq olduqları "Sahibtac" MMC ləğv ediləcək, həmin MMC-nin və "Ayrza" MMC-nin mülkiyyətində olan bütün əmlaklar Cəlal Əliyevin mülkiyyətinə veriləcək.**

Məhkəmə həmçinin Cəlal Əliyevin keçmiş ortağı Sədiyar Zeynalov barəsində cinayət işi başlanması tələbini də təmin edib. Prezidentin əmisi - Cəlal Əliyevin ortaqlarından biri Şəhla Zeynalova da qarşılıqlı iddiayla eyni məhkəməyə müraciət etmişdi. İddia ərizəsində göstərmişdi ki, «Sahibtac» Məhdud Məsuliyyətli Cəmiyyət onun və həyat yoldaşı Sədiyar Zeynalovun nizamnamə kapitalındakı payı 50 faiz olmaqla təsis edilib. Firmanın adı da onların övladının adı ilə bağlı olub. 1992-ci ildən ofis biznesi və hüquqi xidmət göstərilməsi ilə məşğul olublar. 1994-cü ildə bir neçə şirkət yaradıblar. Onların arasında «Sahibtac» və «Ayrza» MMC-lər də olub.

«Sahibtac» MMC tərəfindən 1995-ci ildən 2002-ci ilədək şəhərin müxtəlif mərkəzi küçələrində 7 ofis binası tikilib. Həmin iddiada həmçinin qeyd edilir ki, 1997-ci ildə Sədiyar Zeynalov Cəlal Əliyevlə tanış olub. Ofis biznesi ilə məşğul olduqlarını biləndə Cəlal Əliyev Sədiyar Zeynalova birgə işləməyi təklif edib. Həmin ildə Cəlal Əliyevin mərhum həyat yoldaşı da «Sahibtac»a təsisçi kimi daxil olub. Cəlal Əliyevin həyat yoldaşı vəfat etdikdən sonra vərəsəlik hüquqları ona və qızına keçib. Şəhla Zeynalovanın iddiasına görə, birgə ortaqlıqları dövründə cəmiyyətin sahib olduğu bütün əmlakların 85 faizi onların, 15 faizi isə Cəlal Əliyevin vəsaitləri hesabına yaradılıb və əldə edilib.

Ancaq məhkəmə yalnız Cəlal Əliyevin iddialarını təmin edib və qarşı tərəfin iddiasını əsassız hesab edib. Məhkəmə qətnaməsi çıxmağa bir gün qalmış prosesi izləməyə gələn AzadlıqRadiosunun əməkdaşı Cəlal Əliyevin nümayəndələrinin tələbi ilə məhkəmə zalından çıxarılmışdı.

# Saakaşvilinin anası Bakıda

**Gürcüstan prezidenti Mixeil Saakaşvilinin anası Dr. Giuli Alasania Bakıya gəlib. Fevralın 1-də xanım Alasania Diplomatik Akademiyada Türkiyə-Azərbaycan-Gürcüstan münasibətlərinə dair mühazirə söyləyib. Mühazirədən sonra Giuli Alasania AzadlıqRadiosunun son vaxtlar ərəb ölkələrində baş verən hadisələrlə bağlı suallarını da cavablandırıb.**

**- Xanım Alasania, hazırda ərəb dünyasında müşahidə olunanlara münasibətiniz.**

- Açığı mənim üçün ərəb ölkələrində son vaxtlar baş verənlər gözlənilməz idi. Xüsusilə də Misirdə. Amma bununla belə ümid edirəm ki, məsələ yaxın vaxtlarda həll olunacaq.

**- Sizcə, bu hadisələri necə dəyərləndirmək, adlandırmaq olar?**

- Hər halda orada insanların xoşbəxt olmadıqları bu hadisələrdən aydın görünür.

**- Bəzi siyasətçilər hesab edirlər ki, bu hadisələr Cənubi Qafqazdan da yan keçməyəcək. Bu cür düşünənlər iddia edirlər ki, Tunisdə, Misirdə və başqa ərəb ölkələrində yaşananlar Azərbaycanda da təkrarlana bilər. Siz bu ehtimalı nə dərəcədə inandırıcı sayırsınız?**



Giuli Alasania

- Bütün bunlar zəncirvarı hadisələrə oxşayır - əvvəl Tunis, sonra da Misirdə baş verməklə dalğa şəklində gəlir. Amma buna baxmayaraq, mən belə düşünmürəm. Şükürlər olsun ki, Azərbaycanda belə hadisələrin baş verməsi ehtimalı yoxdur.

***İlqar Rəsul***

# Bayraq qayıtdı



**Azərbaycanın və dünyanın ən hündür bayrağı yerinə qaytarılıb. Hazırda Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ərazidə yoxdurlar. Fevralın 2-də səhər saatlarından Dövlət Bayraq Meydanındakı bayraq dirəyində problem yaranmış, dirəyin yaxınlığındakı 9 mərtəbəli binanın sakinləri evakuasiya olunmuşdu.**

Səbayel Rayon İcra Hakimiyyəti və Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumata görə, fevralın 2-də gecə saat 3 radələrində Dövlət Bayraq Meydanında güclü küləyin əsməsi nəticəsində texniki xidmətlər tərəfindən bayraq dirəyində titrəmə halları müəyyən edilib. Mütəxəssislər tərəfindən dərhal zəruri və təxirəsalınmaz təhlükəsizlik və profilaktik tədbirlər həyata keçirilib. Görülmüş tədbirlər nəticəsində səhər 6.30 radələrində dirəyin titrəyişləri nizamlanıb.

Dövlət Bayrağı Meydanının tikintisinə 2007-ci ildə başlanıb, tikinti 3 il davam edib. İnşa olunmuş dayağın hündürlüyü 162 metrdir. «Ginnes» Dünya Rekordları Təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

**AzadlıqRadiosu.az saytında Bayraq meydanında yaranmış son vəziyyətlə bağlı videoya baxmaq olar.**


Ramiz Mehdiyev

# Hakimiyyətdə antikorrupsiya həftəsi...

**Yanvarın 27-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin prezident İlham Əliyevin tapşırığı ilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın iclasını keçirməsi və korrupsiya ilə bağlı xəbərdarlıqlar etməsi təsirsiz ötüşməyib. Ötən həftə ərzində müxtəlif nazirliklərdən neqativ hallara qarşı mübarizə ilə bağlı bəyanatlar verildi və konkret addımların atılması ilə bağlı xəbərlər yayıldı.**

Ramiz Mehdiyev iclasda neqativ halların ölkədə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə saldığını deyib. O həmçinin bütün bunların Azərbaycanın işgüzar nüfuzuna xələl gətirdiyini vurğulayıb və bu rəyin prezidentin mövqeyi olduğunu xatırladıb. Ramiz Mehdiyevin fikrincə, ölkədə qanunsuz yoxlamalara, rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə formal xarakter daşımamalıdır. Bu, hakimiyyət orqanlarının fəaliyyət prioritetlərindən biri olmalı, bu sahədə səmərəli nəzarət və hesabat sistemi yaradılmalıdır. Prezident Administrasiyasının rəhbəri bu problemlərin araşdırılmasının və qısa müddətdə aradan qaldırılmasının zəruriliyini vurğulayıb.

**KAGIZ ÜSTÜNDƏ XƏBƏRDARLIQ?..**

Müstəqil iqtisadçılar, müxalifət və KİV hakimiyyətin bu addımının görüntü xarakteri daşıdığını deyir, ərəb dünyasında baş verən hadisələrin fonunda yerli hakimiyyətin ölkədə sosial narazılıqları səngitmək üçün ya kosmetik, ya da müvəqqəti dəyişikliklər etmək istədiyini iddia edir. Bununla belə, müxtəlif nazirliklər özlərinin fəaliyyətində korrupsiya və neqativ halların olduğunu deyən bəyanatlar verməkdədir.

***Səadət Akifqızı***

# Samir Şərifov: «Əsassız yoxlamalar aparılmamalıdır»

**Fevralın 1-də Maliyyə Nazirliyində 2010-cu ilin yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**


Samir Şərifov

*Nazir Samir Şərifov maliyyə orqanlarında süründürməçilik, vəzifədən sui-istifadə və korrupsiyaya şərait yaradan halların qarşısının alınması və qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı bir sıra qurumlara konkret tapşırıqlar verib. Nazir bildirib ki, Nazirliyin qurumları sahibkarlıq subyektlərində yoxlamalar aparan zamanı qanunvericiliyin tələblərinə riayət etməli, əsassız yoxlamalar aparmamalıdır:* «Bütün yoxlamalar dövlət başçısının fərmanına uyğun olaraq əvvəlcədən tətbiq olunmuş plan əsasında aparılmalıdır. Yoxlamalar zamanı müvafiq icra orqanlarının nümayəndələrinin də iştirakı təmin olunmalıdır. Eyni zamanda müxtəlif fəaliyyət növləri üzrə lisenziyalar almaq üçün sahibkarlar tərəfindən edilən müraciətlərə vaxtında cavab verilməli, sahibkarların qanunvericilikdə nəzərdə tutulmuş hüquqları təmin olunmalıdır».

Eyni zamanda «Şəffaflığın artırılması və Korrupsiyaya Qarşı Mübarizə üzrə Milli Strategiya»nın icrası üzrə Nazirliyin 2011-ci il üçün təsdiq edilmiş Tədbirlər Planının icrası nəzarətdə saxlanılmalı, vətəndaşların qəbulu işi təkmilləşdirilməli, işçilərin peşəkarlığı artırılmalı, Nazirliyin «qaynar xətti»nin əhatə dairəsi genişləndirilməli, «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununa əsasən açıqlanmalı olan məlumatlar Nazirliyin internet səhifəsində yerləşdirilməli və daim yeniləşdirilməlidir.

***Arifə Kazımova***

# Vergilər naziri özünün səyyar yoxlamalarından narazı danışır


Fazil Məmmədov

**Fevralın 2-də Vergilər Nazirliyində kollegiya iclası keçirilib. Nazirliyin bir gün sonra yaydığı məlumatda deyilir ki, iclas prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin yekunlarına həsr olunmuş iclasında və prezidentin göstərişi ilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın yanvar ayının 27-də keçirilmiş iclasında verilmiş tapşırıqların müzakirəsinə həsr olunub.**

Vergilər naziri Fazil Məmmədov vergi xidmətinin fəaliyyətində şəffaflığın artırılması üçün son illər görülən bəzi işlərə baxmayaraq, vergi əməkdaşları tərəfindən yol verilən kobud neqativ halların bütün vergi xidmətinin nüfuzuna xələl gətirdiyini bildirib. O, sistemdaxili nəzarətin və şəxsi heyətlə aparılan işlərin gücləndirilməsinin vacibliyini qeyd edib.

F.Məmmədov bildirib ki, ayrı-ayrı vergi işçilərinin qanunla müəyyən edilmiş vəzifələrinə uyğun olmayan hərəkətləri vergi ödəyicilərinin haqlı narazılığına və vergi orqanlarına etimadsızlığına səbəb olur. İlk növbədə bu səyyar vergi yoxlamaları və ya operativ nəzarət tədbirləri aparılarkən Vergi Məcəlləsinin tələblərinin pozulması və ayrı-ayrı hallarda korrupsiya və rüşvətxorluq faktlarının olması ilə bağlıdır.

Nazirin sözlərinə görə, ötən il vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsinə, attestasiyanın yekunlarına görə müasir tələblərə cavab verməyən, habelə vətəndaş müraciətləri və şikayətlər üzrə aparılmış araşdırmalar nəticəsində neqativ hallara yol vermiş, vergi işçilərinin sistemdən kənarlaşdırılmasına baxmayaraq, bu kimi hallara hələ də rast gəlinməsi daha ciddi tədbirlər görülməsini tələb edir.

# Səhiyyə naziri də korrupsiyadan və süründürməçilikdən danışdı



**Tibb müəssisələrinin baş həkimləri və elmi tədqiqat institutlarının direktorlarının iştirakı ilə keçirilən iclasda nazir Oqtay Şirəliyev uğurlarla yanaşı, problemlərdən də danışıb. O. Şirəliyev son vaxtlar gələn şikayətlərin əsasını, əvvəllər olduğu kimi, müalicə və müayinə işləri deyil, əksinə, diqqətsizlik, qayğısızlıq, bəzi hallarda hətta səhlənkarlıq təşkil etdiyini bildirib.**

**«XƏSTƏLƏRƏ HƏLƏ DƏ DƏRMAN ALDIRMAQ ƏNƏNƏLƏRİ VAR»**

Qeyd olunub ki, «xəstəxanaların kifayət qədər dərman preparatları və sarğı materialları ilə təmin olunmasına baxmayaraq, xəstələrə, onların yaxınlarına hələ də dərman aldırmaq hallarına rast gəlinir. Xəstələrdən və onların qohumlarından, xüsusilə də doğum evlərində müxtəlif bəhanələrlə qeyri-rəsmi ödənişlərin tələb olunması halları da vardır». O. Şirəliyev tapşırıb ki, Nazirliyin struktur bölmələrinin rəhbərləri xəstəxanaların fəaliyyətini ciddi nəzarətdə saxlasınlar, mütəmadi reydlər aparsınlar, nöqsanlar qısa müddətdə aradan qaldırılsın.

**« MÜVAFİQ TƏDBİRLƏR GÖRÜLSÜN»**

Müşavirədə yerli sanitariya nəzarəti orqanları tərəfindən bir sıra hallarda Fərmanın icrasında pozuntulara yol verildiyi bildirilib. Sahibkarlıq subyektlərinin fəaliyyətinə lüzumsuz müdaxilələrin edilməsi, qanunsuz yoxlamaların aparılması və s. qeyd edilib. İştirakçılara tapşırılıb ki, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin sanitariya-epidemioloji şurasında bu məsələyə baxılsın və bu sahədə pozuntulara yol vermiş məsul şəxslərə qarşı müvafiq tədbirlər görülsün.

***Maarif Çingizoğlu***

# Mədəniyyət və Turizm Nazirliyi də iclas keçirib



Əbülfəs Qarayev

**Fevralın 3-də Mədəniyyət və Turizm Nazirliyində geniş kollegiya iclası keçirilib. Nazir Əbülfəs Qarayev bildirib ki, Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxil olan idarələrin, şöbələrin, müəssisə və təşkilatların fəaliyyətində şəffaflığın artırılması günün mühüm tələblərindəndir.**

Nazirliyin mətbuat xidmətinin bu barədə yaydığı məlumatda qeyd olunur ki, "kollegiya iclasında mədəniyyət və turizm sahələrində mövcud olan müəyyən problem və çatışmazlıqlar da müzakirə olunub, nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar verilib. İclasda müzakirə edilən məsələyə dair müvafiq qərar qəbul edilib."

Mədəniyyət və Turizm Nazirliyinin Mətbuat xidməti bu tədbirin prezident İlham Əliyevin göstərişi ilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın yanvar ayının 27-də keçirilmiş iclasında verilmiş tapşırıqlarla bağlı keçirildiyini vurğulayır.

# «Hökumət Misirdə, Tunisdə baş verənlərdən qorxur»

**İŞDƏNÇIXARMA KAMPANİYASI**

Birinci xəbər Əmlak Məsələləri Dövlət Komitəsindən gəldi. Komitədən verilən məlumata görə, neqativ hallara yol vermiş 15 nəfər işdən azad edilib, 40-a yaxın işçiyə qarşı ciddi tənbeh tədbirləri görülüb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən gələn növbəti xəbərdə deyilir ki, işdə nöqsana yol verdiyinə görə bu il 2 nəfər vəzifədən kənarlaşdırılıb. Ötən il isə 116 nəfərə töhmət verilib, 34 nəfərə xəbərdarlıq edilib. 1 nəfər barədə hüquq-mühafizə orqanlarına müraciət olunub. İqtisadi İnkişaf Nazirliyində işdən çıxarılan olmasa da, fevralın 1-də kollegiya iclası keçirilib.

**«BU, KAMPANİYADIR, KORRUPSİYA İLƏ MÜBARİZƏ DEYİL»**

*Nazirlər Kabinetinin keçmiş şöbə müdiri Oqtay Haqverdiyev hökumətin son addımlarını şərh edərkən belə deyir:* «Əvvəla, o çıxardıqları adamların adını, familiyasını, tutduğu vəzifəni desinlər ki, görək onlar nə səviyyədə korrupsionerdir. Bəlkə 50 manat götürüb, deyiblər ki, korrupsionerdir. Dekorasiya qurulub. Aktyorlar tapılıb cəzalandırılmalıdır. Amma öncə bu işin ssenaristindən, ideoloji rəhbərlərdən başlamaq lazımdır. Yəni bununla məşğul olmaq üçün həm siyasi iradə, həm də effektli mexanizm olmalıdır».

**«TƏCİLİ BURDA ƏHALİYƏ GÖSTƏRİRLƏR Kİ...»**

*Oqtay Haqverdiyev hökumətin korrupsiya ilə bağlı tələm-tələsik kampaniyaya başlamasının səbəblərini də izah edir. İqtisadçıya görə, görünür, Yaxın Şərqdə baş verənlər hökuməti tərpədib:* «Tunisdir, Misirdir, başqalarıdır, hamısında aləm qarışıb. Həmin ölkələrdə rüşvətxorluq baş alıb gedir. Ona görə də təcili burda əhaliyə göstərirlər ki, biz də mübarizə aparırıq, müşavirələr keçiririk. Amma nəticə olmalıdır. Konkret bilinməlidir ki, mübarizə gedir. Yoxsa xırda-xuruş 15 nəfər işdən çıxarılıb. Onu da axtarsan gülməli adamlar otraya çıxacaq».



Oqtay Haqverdiyev

*İqtisadçı Məhəmməd Talıblı* isə deyir ki, bəsit addımlar atılır. Bir neçə adamı korrupsiyada ittiham edib işdən çıxarmaq çıxış yolu deyil. O, hesab edir ki, bu cür addımlar təsir gücünə malik olmayacaq.

# Парламент Азербайджана «атакует» Запад


Зияфет Аскеров

**Глава делегации Азербайджана в ПАСЕ Самед Сеидов, отчитываясь 1 февраля в парламенте, негативно высказался о должности спецдокладчика, назвав это появление проявлением двойных стандартов: «Деятельность Кристофера Штрассера в качестве спецдокладчика ПАСЕ по политзаключенным в Азербайджане - неприемлема. Пусть занимаются политзаключенными в других странах, нам это не нужно».**

Вице-спикер парламента Зияфет Аскеров же считает, что в Совете Европы «не знают точного определения понятия «политзаключенный»: «Запад не желает видеть нарушение прав человека в Армении и проявляет двойные стандарты». Аскеров также раскритиковал западных дипломатов: «Они занимаются не своими делами. Сколько еще времени они будут выполнять здесь роль иностранных агентов? Пусть занимаются своими делами».

Другой депутат от правящей партии «Ени Азербайджан» (ПЕА) Сиявуш Новрузов, на предложение отпраздновать юбилей правозащитницы Новеллы Джафароглу, призвал «осторожно» отнестись к этому: «Такие как она формируют за рубежом негативное мнение об Азербайджане, а затем нам назначают докладчика по политзаключенным»

**НЕ ХОДИТЕ ДЕТИ, В ИРАН ГУЛЯТЬ**

Депутат от лояльной к властям партии «Ана Вэтэн» Захид Орудж предложил азербайджанцам не ездить в Иран: «Отмена визового режима имеет далеко идущие цели. Иран экспортирует в Азербайджан не только религию, но и наркотики».

Депутат Мубариз Гурбанлы (заместитель исполнительного секретаря ПЕА), потребовал от посольства США в Баку раскрыть причины своих заявлений об опасности совершения терактов в Азербайджане: «Этот вопрос требует серьезного расследования, и в адрес посольства США необходимо отправить запрос о причинах распространения таких слухов. Распространяемая посольством подобная информация рождает страх и напряженность и у граждан Азербайджана.»

**ИСТИНА ГДЕ-ТО ТАМ**

Депутат Жаля Алиева (ПЕА) выступила с предложением принять закон об охране чести, достоинства и имиджа Гейдара Алиева: «В некоторых соседних стран пишут о Гейдаре Алиеве несоответствующие истине вещи. Причем это происходит там, где существует закон о защите имиджа и авторитета национального лидера».

***По материалам азербайджанских СМИ***

# Проблема с «копированием» демократии

**Германия и Европейский союз окажут поддержку Египту в осуществлении перемен. Об этом заявила в субботу бундесканцлер Ангела Меркель, выступая на 47-й Мюнхенской конференции по вопросам политики безопасности, сообщает ИТАР-ТАСС. В Египте грядут перемены, и, по словам Меркель, Европа готова оказать этому процессу поддержку путем "нового партнерства".**

Бундесканцлер подчеркнула "абсолютную необходимость" защиты права населения Египта на свободу. Она выразила удовлетворение тем, что протесты в Египте входят в более мирное русло. Канцлер Германии подчеркнула, что внешняя политика должна руководствоваться принципами соблюдения прав человека, однако признала, что западная модель демократии не может быть реализована "один к одному" в любом регионе мира. Тем не менее, заметила Меркель, есть некая "красная линия", определенная позицией ООН в области прав человека, которую правительствам недопустимо переступать.

С ней согласился премьер-министр Великобритании Дэвид Кэмерон, который сказал: "Я не думаю, что если ввести демократию в одночасье, то все проблемы


Ангела Меркель

будут решены. Надо постепенно вводить конструктивные основы демократии". Переход к демократии в Египте, сказал Камерон, необходимо начинать уже сейчас, чтобы люди почувствовали, что у страны есть перспективы.

# Аятолла Хаменеи: «События в Египте - отголосок иранской революции 1979 года»


Аятолла Али Хаменеи в своем специальном лимузине, октябрь 2010

*На пятничной проповеди в Тегеранском университете духовный глава Ирана аятолла Али Хаменеи дал характеристику событиям в арабском мире, в частности в Тунисе и Египте. Вот несколько фраз из его выступления: «Нынешние события в Северной Африке - поднявшаяся в Тунисе и достигшая пика в Египте волна народного гнева - имеют особое значение для иранского народа. Они сравнимы с землетрясением».*

«Это то, что мы всегда называли исламским пробуждением, произошедшим под влиянием великой революции иранского народа. Это - громкий отголосок иранской революции 1979 года. Народы стран, в которых поднялись справедливые восстания, осознали, какое истинное лицо имеют их коррумпированные руководители. Президент Египта Хосни Мубарак - лакей сионистского режима, а отстраненный от власти президент Туниса Зин аль-Абидин бен Али - был зависим от США и ЦРУ».

# Mehman Əliyev gizli səbəbdən danışır




Mehman Əliyev: **"İslahatlar 80 faiz reallaşacaq"**

***Nazirlərin bir birinin ardınca iclas keçirdib qüsurlardan danışmaları prosesi davam edir.Hadisələrin dayanmadan yüksələn xətt üzrə inkişaf etdiyini nəzərə alıb düşüncələrini bizimlə bölüşmək üçün "Turan" agentliyinin rəhbəri Mehman Əliyevə müraciət etdik.***

**- Mehman bəy, sizcə nə baş verir?**

-Keçən ilin oktyabr ayında Dünya Bankı ilə Azərbaycan hökuməti birgə mühüm bir layihənin təqdimatını keçirdilər. O zaman tərəflər arasında 4 illik bir proqram elan edildi. Həmin proqram bir sıra islahatlar-antikorrupsiya, şəffaflıq, sahibkarlığın, azad iqtisadiyyatın inkişafı və sair xeyli məsələləri nəzərdə tutan böyük bir layihədir. Azərbaycan hökuməti ilə bu strateji işi həyata keçirmək üçün 1 milyard dollar vəsait ayrılıb. İndi bütün bu müşahidə edilənlərin hamısı həmin proqramın tərkib hissəsi olan tövsiyələrin, tələblərin yerinə yetirilməsidir. Sadəcə, hökumət bu proqramı xalqdan gizlədir.

**- Bu proqramın olduğu kimi həyata keçiriləcəyi nə dərəcədə inandırıcıdır?**

-Mən hesab edirəm ki, o layihə 100 faiz də olmasa, 80 faiz reallaşacaq. İkincisi isə hesab edirəm ki, hökumət vətəndaş çəmiyyətinin bu prosesdə iştirak etməsindən narahatdır. Ona görə də biz o prosesə qoşulmaq üçün əlimizdən gələni etməliyik. Bu məsələyə vətəndaş cəmiyyəti - media, QHT-lər və sair nə qədər daxil ola bilsələr, proqramın həyata keçirilməsi də o qədər effektiv olacaq. Yəni bizim bu prosesə dəstəyimiz, iştirakımız çox mühüm əhəmiyyət kəsb edir.

**- Bu iclasları, özünütənqidləri ərəb ölkələrində baş verən dəyişikliklərlə əlaqələndirib hökumətin görüntü yaratmaq istədiyini düşünənlər də var...**

-Yox, bu belə deyil. Sözsüz ki, bu məsələdə də nəsə görüntü yaratmağa çalışacaqlar. Amma real islahatlar o proqramda yazılıb. Və onlar həyata keçiriləlidir. Yəni bu iş hansisa görüntülərlə, şifahi danışıqlarla yekunlaşa bilməz. Belə olmayacaq.

***İlqar Rəsul***

# «Korrupsiyaya qarşı mübarizəyə biz özümüzdən başlamalıyıq»

*«Azərbaycanda korrupsiyaya qurşanmanın əlaməti kimi dəbdəbəli həyat tərzi keçirilməsi faktlarına qarşı ən ciddi tədbirlər görülməlidir». Bu barədə baş prokuror Zakir Qaralov fevralın 4-də keçirdiyi geniş kollegiya iclasında məlumat verib. Baş prokuror qeyd edib ki, əməkdaşlar tərəfindən cinayət işlərinin istintaqı və yoxlamalar zamanı rüşvət istənilməsinə, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrə qarşı ən ciddi tədbirlərin görülməsi təmin olunmalıdır:* «Korrupsiyaya qarşı mübarizəyə biz özümüzdən başlamalıyıq ki, başqalarından belə münasibət tələb etməyə, onların korrupsioner fəaliyyətlərini araşdırmağa mənəvi haqqımız olsun». İclasda bildirilib ki, ötən il Azərbaycanda beş prokurorluq əməkdaşı sistemdən xaric edilib. Qeyd olunub ki, 2010-cu ildə işində və xidmətdən kənar fəaliyyətində kobud qanunsuzluqlara yol verdiklərinə görə 83 əməkdaş intizam məsuliyyətinə cəlb edilib. 50 nəfərə şiddətli töhmət və töhmət elan olunub. 5 əməkdaş tutduğu vəzifələrdən azad edilib. Prokurorluq işçisinə yaraşmayan və prokurorluqda xidmətlə bir araya sığmayan hərəkətlərə görə 5 əməkdaş prokurorluq orqanlarından xaric olunub.



Zakir Qaralov




# «Azərbaycanda köklü dəyişikliklər olacaq»

**İctimai palatanın yeni seçkilərin keçirilməsi ilə bağlı tələbi yerinə yetirilməzsə, Azərbaycanda köklü dəyişikliklər olacaq. Bunu AzadlıqRadiosunun "İşdən sonra" proqramında Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli deyib.**

« Bu o demək deyil ki, bu bəyanatı imzalayan biz partiya liderləri bu inqilabı təkbaşına edəcəyik. Artıq dünya təcrübəsi onu göstərir ki, sonsuzluğa qədər haqsızlıqla, hüquqsuzluqla xalqlar barışmır. Və demokratik prosedurlar tükənəndə artıq klassik inqilablar baş verir və Azərbaycan da bundan yan keçməyəcək».

*Əli Kərimli deyir ki, müxalifət uzun illərdir çalışır ki, belə inqilablar baş verməsin. Müxalifət məxməri və tədrici islahatlarla olan dəyişikliyi istəyir:* «Biz hələ də o yolu təklif edirik. O yol ağrısız yoldur, o yol qansız yoldur. Biz o yolu təklif edirik. Özümüzdən asılı olan fədakarlığı edirik ki, o yol Azərbaycanda baş tutsun. Amma hökumət bizi yenə eşitməyəcəksə onu demək istəyirəm ki, burdan o hökuməti uyarmaq istəyirəm ki, bizi eşitməyə bilərsiniz. Amma sonra həqiqi inqilabla üz-üzə qalacaqsınız».

**"İnqilab baş versə bunun məsuliyyətini öz üzərinizə götürürsünüzmü?"** *sualına partiya sədri deyib ki, bir nəfərlə inqilab olmur:* «Hər hansı bir adam inqilab edə bilməz. Hər hansı bir adamın mühüm rolu ola bilər. Söhbət məsuliyyətdən gedirsə, mən Azərbaycanın demokratiyaya qovuşa bilməsi üçün hər cür məsuliyyəti üzərimə götürməyə, hər cür fədakarlığı etməyə hazıram».

***Kamran Mahmudov,***
***Xədicə İsmayılova***

# Azərbaycan hökumətinin qoca nazirləri



**«Əgər köklü islahatlar getməli olsaydı, Nazirlər Kabineti buraxılmalıydı. Yeni baş nazir təyin olunmalıydı». Azərbaycan hakimiyyətinin son günlər korrupsiya ilə bağlı keçirdiyi müşavirələri qiymətləndirərkən iqtisadçı Natiq Cəfərli belə deyir: «Təsəvvür edin ki, Azərbaycanda nazirlik və dövlət qurumlarının sayı Gürcüstandan üç dəfə çoxdur. Saakaşvili islahatlara başlayanda ilk addım olaraq struktur islahatı apardı. Vətəndaşa və iş adamına mane olan, bürokratik əngəllər yaradan qurumları ləğv etdi və ya bir neçəsini birləşdirdi. Çox güclü kadr islahatı getdi. Bundan sonra da müəyyən prioritetlər elan edildi. Azərbaycanda isə bu görünmür».**


Natiq Cəfərli

### GÜRCÜ DÜSTURU

Natiq Cəfərli Gürcüstan modelini yada salır. Bu ölkənin prezidenti islahatçı imiciylə tanınır, hakimiyyətə gələndən az sonra korrupsiyanın miqyasını azaltmağa nail oldu.

Prezident Mixeil Saakaşvili bunun düsturunu müsahibələrinin birində açmışdı. O demişdi ki, gürcü hökumətində yaşı 40-dan çox olan bir nəfər var - Xarici İşlər naziri Qriqol Vaşadze.

### AZƏRBAYCANIN 75 YAŞLI BAŞ NAZİRİ

Azərbaycana baxaq. Nazirlər Kabinetinə başçılıq edən Artur Rasizadənin 75 yaşı var. Sovet sisteminin yetirməsi 1996-cı ildən kabinetin rəhbəridir. Bu günə qədər baş nazir demək olar ki, kölgədə qalıb. Səlahiyyətlərinə görə hökumətdə ikinci fiqur olan bu adam fəaliyyəti ilə diqqət cəlb etməyib. Onun kabinetin iclasını keçirdiyi bəlkə də yada düşmür. Səbəb nədir?

### «BAŞ NAZİR LAZIMDIRMI?»


Toğrul Cuvarlı

*Ekspert Toğrul Cuvarlı isə sualı başqa cür qoyur:* **baş nazir lazımdırmı?**

«ABŞ-da baş nazir varmı? Yoxdur. Ölkə də işləyir, hər şey yerində. Bu, Artur Rasizadənin söhbəti deyil. Bizdə görünən fiqurlar göz qabağındadır. Ziya Məmmədov, Kəmaləddin Heydərov, heç sadalamağa ehtiyac yoxdu».

### HEYDƏR ƏLİYEVİN UZUNÖMÜRLÜ KADRLARI

Yeri gəlmişkən, Azərbaycanda ölkə başçısının özünü çıxmaqla – onun 50 yaşı yoxdur – əksər postlarda nisbətən yaşlılar oturub. Həm də bu vəzifədə onlar uzun illərdir oturublar. Məsələn, prezidentin tapşırıq və sərəncamlarının yerinə yetrilməsinə nəzarət etməli qurumun- Prezident Administrasiyasının rəhbəri də yaşlıdır. Ramiz Mehdiyevin 73 yaşı var. Bu vəzifədə 1995-ci ildən çalışır. Düzdür, Artur Rasizadə ilə müqayisədə bu siyasətçi daha fəaldır.

Azərbaycan hökumətində elə nazirlər və ya komitə sədrləri var ki, 17 ildir vəzifələrində qalıblar. Məsələn, 63 yaşlı daxili işlər naziri Ramil Usubov 17 ildir, 61 yaşlı müdafiə naziri Səfər Əbiyev 16 ildir vəzifədədir. 65 yaşlı təhsil naziri Misir Mərdanov 1998-ci ildən nazirdir.

Onlarla müqayisədə cavan olan 55 yaşlı Əbülfəs Qarayev də ən uzunömürlü nazirlərdəndir. 1994-2001-ci illərdə Gənclər və İdman naziri, 2001-2006-cı illərdə Gənclər, İdman və Turizm naziri olub. Son beş ildəsə Mədəniyyət və Turizm naziridir.

Beş ildir Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbəri Hidayət Orucov 67 yaşındadır. 1992-1993-cü illərdə prezidentin millətlərarası münasibətlər üzrə müşaviri, 1993-2006-cı illərdə milli siyasət məsələləri üzrə dövlət müşaviri olub. 2005-2006-cı illərdə prezidentin Milli Azlıqlarla və Dini Qurumlarla İş üzrə Dövlət müşaviri işləyib. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin rəhbəri Qərib Məmmədov 65 yaşındadır, 1997-ci ildən sədrdir.

### ƏN GƏNC NAZİRİN 46 YAŞI VAR

Siyahını uzatmayaq. Hökumətdə ən gənc nazirin 46-47 yaşı var. İqtisadi İnkişaf naziri Şahin Mustafayevlə Gənclər və İdman naziri Azad Rəhimovun 46 yaşı var. Birincisi bu vəzifədə 2008-ci ildən, ikincisi 2006-cı ildən işləyir. 47 yaşlı Fazil Məmmədov artıq on bir ildir Vergilər naziridir.

Bunlar İlham Əliyevin atası ilə işləmiş nazir və ya komitə rəhbərləridir. Onun iş başına gətirdikləri kimlərdir. Məsələn, 2004-cü ildə təyin olunmuş Xarici İşlər naziri Elmar Məmmədyarovun 51, Milli Təhlükəsizlik naziri Eldar Mahmudovun 55 yaşı var. Elmar Məmmədyarov ona qədərki nazirlərdən onunla fərqlənir ki, peşəkardır – diplomatdır. Eldar Mahmudovsa əksinə, MTN-də yeni adamdır, o, nazir olana qədər Daxili İşlər Nazirliyində çalışıb.

### «AVTORİTAR MODERNLƏŞMƏ»

*Azərbaycanlı ekspert Toğrul Cuvarlı deyir ki, əslində kadrların yaşlı və ya cavan olması önəmli deyil:* «Qocaları cavanlarla əvəzləməklə iş bitmir. Modernləşmə iki yolla mümkündür: təbii və ya avtoritar modernləşmə. Rəhbərlikdə siyasi iradə olanda, ölkəni dəyişməklə bağlı proqram olanda avtoritar modernləşmə də işləyir. Amma bilmirəm bizdə bu varmı? Mən bu iradəni görmürəm».

Toğrul Cuvarlıya görə, islahat daha mühümdür, nəinki yolüstü korrupsiya ilə mübarizə aparmaq.

***Şahnaz Bəylərqızı***

# Azərbaycanda qiymət artımı



Suyun da qiyməti qalxdı

**Tarif Şurası suyun, poçt və sərnişindaşıma xidmətlərinin qiymətlərində artım nəzərdə tutan dəyişiklik edib. Bu, şuranın yanvarın 31-də keçirilən iclasında qərara alınıb.**

Daxili və beynəlxalq məktub korrespondensiyaları və bağlamalar üzrə xidmətin növündən asılı olaraq yeni tariflər müəyyənləşdirilib. Yeni tariflər daxili universal poçt xidmətləri üçün 20 qəpiklə 2 manat arasında dəyişir. Beynəlxalq poçt göndərişlərində isə hər bir ölkə üzrə baza tarifləri və çəkiyə görə tariflər müəyyən edilib.

Sudan istifadə xidmətlərinin tarifləri ƏDV daxil olmaqla əhaliyə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Xırdalan şəhərləri və Abşeron rayonu üzrə 1 m3 üçün 30 qəpik, digər regionlarda 25 qəpik, qeyri-əhali istehlakçı qrupları üçün ölkənin bütün ərazisi üzrə 1 manat, tullantı sularının axıdılması xidmətlərinin tarifləri əhali qrupu üzrə 6 qəpik, digər istifadəçilər üçün 30 qəpik səviyyəsində müəyyən edilib. Sudan xammal kimi istifadə edən istehlakçılar üçün isə tariflər dəyişdirilməyib, hazırkı səviyyədə saxlanılıb. Bununla yanaşı, əhali istehlakçı qrupunda sayğacsız abonentlər üzrə bir nəfər üçün aylıq istehlak norması 6 m3-dən 5 m3-ə endirilib. İndiyə qədər 1 m3 suyun qiyməti Bakı-Abşeron yarımadası və iri şəhərlərdə 18 qəpik (ƏDV ilə 22 qəpik), rayonlarda isə 14 qəpik idi.

Tarif Şurasının iclasında "Azərbaycan Dəmir Yolları" QSC-nin müraciəti əsasında ölkədaxili sərnişindaşıma xidmətlərinə də baxılıb, marşrutlar üzrə biletlərin qiymətləri vaqonun tipindən asılı olaraq müəyyənləşdirilib. Yeni tariflər istiqamətlərdən və məsafədən asılı olaraq adi qatarlarda 3-19 manat, sürət firma qatarlarında 14-25 manat arasında dəyişir. Tariflərə yataq dəstinin dəyəri də daxil edilib. Sadə elektrik qatarlarında gedişhaqqı 20 qəpiklə 2 manat arasında, sürətli elektrik qatarlarında isə 60 qəpiklə 6 manat arasında müəyyən olunub. Qərar qəbul edilərkən 1997-ci ildə təsdiq edilmiş mövcud ölkədaxili sərnişindaşıma tariflərinin bu xidmətlərə çəkilən xərclərdən dəfələrlə aşağı olması nəzərə alınıb.

*Yeni tariflər 1 fevral 2011-ci il tarixindən qüvvəyə minib.*

# Qiymət artımına reaksiyalar

**OQTAY ƏSƏDOV: «ŞİRKƏT İŞÇİLƏRİN PULUNU VERƏ BİLMİR»**

*Fevralın 1-də bir sıra millət vəkilləri parlamentdə qiymət artımını müzakirəyə çıxarmaq istəyiblər. Qüdrət Həsənquliyev hökumətin bu qərarı bir müddət təxirə salmasını təklif edib.*

*Milli Məclisin sədri Oqtay Əsədova* görəsə, qiymət artımından manipulyasiya məqsədi ilə istifadə etmək düzgün deyil. O bildirib ki, dünyanın heç yerində suyun qiyməti Azərbaycandakı kimi ucuz deyil: «Suyun qiyməti 12 qəpik artırılıb. Bir şüşə suyu dükandan neçəyə alırsınız? Bu gün Bakı şəhərini içməli su ilə təmin edən şirkətdə 12 min adam işləyir. Tariflər aşağıdır, şirkət işçilərin pulunu verə bilmir. Eynilə də dəmiryolunda tariflər Ermənistan və Gürcüstandan 3-4 dəfə ucuzdur».



Zöhrab İsmayıl

**«ŞOK EFFEKT»**

*İqtisadçı Zöhrab İsmayıl* deyir ki, qiyməti artıran hökumət keyfiyyətdə dəyişiklik etmir. Bu da soyğunçuluqdur. *Başqa iqtisadçı Rövşən Ağayevin* fikrincə, hökumətin bu addımı vətəndaşda şok yaradır: «Yoxsul təbəqənin üstünlük təşkil etdiyi ölkədə kəskin qiymət artımları yolverilməzdir. Hökumət heç vaxt əməkhaqlarını, təqaüdləri bu qədər artırmazdı. Ən yaxşı halda 15-20 faiz artım olur».

**«KİM TƏMİNAT VERİR?»**

*Hökumət qiymət artımını sözügedən sahələrdə maya dəyərinin baha olması ilə bağlayır. Amma iqtisadçı Rövşən Ağayev deyir ki, sözügedən sahələr inhisarçı qrupların əlində cəmlənib. Və üstəlik bu qurumlarda maliyyə hesabatlılığı beynəlxalq standarta uyğun deyil:*

«Biz necə inanaq ki, qiymətləri 70-80 faiz artıran «Azərsu» gəlirləri yenə gizlətməyəcək? Yenə pullar qeyri-müəyyən istiqamətə, əhalidən gizlədilən istiqamətə getməyəcək. Buna kim təminat verər?»

**«BUNUN NƏYİ SÜRPRİZDİR?»**

*Tarif Şurasının katibi Elşən Əsədovsa* deyir ki, son 13 ildə dəmiryolunda



qiymət artmayıbsa, bunun nəyi sürprizdir. O ki qaldı suya: «Bir adamın ay ərzində su xərci 42 qəpik artacaq. Burda hansı ciddi fəsaddan danışmaq olar? Gəliri də çoxdur, xərci də».

*Elşən Əsədov bunu da deyir ki, yaxın aylarda benzinin, qazın, elektrik enerjisinin qiymətinin artması ilə bağlı müraciətlər yoxdur və müzakirə də aparılmır. Təxminən bir ay öncə Tarif Şurasının katibi AzadlıqRadiosuna demişdi ki, qiymət artımı ilə bağlı onlara müraciət gəlməyib:* «Əhalini maraqlandıran benzindi, qazdı, sudu – bununla bağlı bizdə müraciət və müzakirə yoxdur».

**BİLET ALANLARIN PƏRTLİYİ, KUPE DÖVRÜ BİTDİ...**

Qiymət artımı ilə bağlı vətəndaşların narazılığını AzadlıqRadiosu.az saytında oxuya bilərsiniz.

***Şahnaz Bəylərqızı***

# Nazirliklərdən çıxarılanlar kimlərdir?




**President Administrasiyasının rəhbəri Ramiz Mehdiyev yanvarın 27-də Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın iclasını keçirib. Korrupsiya ilə mübarizənin hökumətin prioritetlərindən biri olduğunu bildirib. Bundan sonra bütün nazirlik və komitələrdə müşavirələr keçirilir, bəzi hallarda işçilərin cəzalandırıldığı deyilir, ancaq konkret adlar çəkilmir.**

**ADLARI NİYƏ AÇIQLAMIRLAR?**

*Əmlak Məsələləri Dövlət Komitəsi mətbuat xidmətinin rəhbəri Qulu Xəlilova* zəng vururuq. Ondan işdən yol verdiyi xətalara görə çıxarılmış 15 nəfərin adını-soyadını və tutduğu vəzifəni açıqlamasını istəyirik. Qulu Xəlilov öncə deyir ki, qoy əvvəlcə başqa nazirliklər çıxardıqları işçilərin adlarını açıqlasın. Daha sonrasa bildirir ki, adların açıqlanması etik baxımdan düzgün olmazdı. Dəstəyi qoymazdan öncəsə belə deyir:

«Yaydığım məlumata şərh vermirəm».

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən də işdə nöqsana yol verdiyinə görə çıxarılan 2 nəfərin və işi hüquq-mühafizə orqanına göndərilən məmurun da adını öyrənə bilmədik.

Amma Gömrük Komitəsi cinayətdə ittiham olunan dörd adamın adını açıqlayıb. Rəsmi məlumata görə, vergidən yayınma fəaliyyətini həyata keçirən cinayətkar qrup ifşa olunub. Qrupun üzvlərindən yalnız dördünün adı çəkilir: Bakı Baş Gömrük İdarəsi Yük Şöbəsinin inspektoru Müseyib Əzizov, Mirələm İsmayılov, kompüter operatoru İsmayıl Əhmədov və Natiq Quliyev. Həmin şəxslərin saxta gömrük bəyannamələri tərtib etməklə vəzifə saxtakarlığı etdikləri deyilir.

**«ADIN AÇIQLANMAMASI ÖZÜ ELƏ KORRUPSİYADIR»**

*İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin rəhbəri Azər Mehtiyev:*

«Elə bunun özü birbaşa korrupsiyadır. Necə yəni etik baxımdan düz deyil? Bu, dövlət vəzifəsində işləyibsə, doğrudan da korrupsiyaya yol veribsə, adı açıqlanmalıdır. Qanunu pozub, bunun nəyi etika gözləntisidir? Bu məmurlar sosial müavinət verdikləri adamların adlarını açıqlamırlar, adını qoyurlar etikaya ziddir. Korrupsiya adı altında tutulanların adını açıqlamırlar, adını qoyurlar etikaya ziddir. Bu sözün özü elə korrupsiyanın əlamətidir».

**İSA QƏMBƏRDƏN TÖVSİYƏ**

*Müsavat Partiyasının başqanı İsa Qəmbər hökumətin son addımlarının kosmetik və müvəqqəti xarakterli olacağını düşünür. O deyir ki, korrupsiya üstündə qurulmuş bu hakimiyyət, sadəcə, bu addımları atmağa vadar olub*: «Səbəblərdən biri göz qabağındadır. Yaxın Şərqdə başlanan inqilabi dəyişikliklər bizim regiondakı proseslərə ciddi təsir edib. Azərbaycan hakimiyyətinin duyduğu narahatlıq göz qabağındadır. İkinci səbəb beynəlxalq qurumların tövsiyələri ola bilər».

*İsa Qəmbər deyir ki, cəmiyyət hökumətin verdiyi bu fürsətdən yararlanmalıdır:* «Tövsiyə edərdim ki, vergi, gömrük və başqa nazirliklərin təzyiqləriylə üzbəüz qalanlar öz hüquqlarını fəal şəkildə qorusunlar. Yəni hakimiyyət kosmetik addım atırsa, cəmiyyət də bunun kosmetik olmaması üçün iradəsini ortaya qoymalıdır. İctimai təzyiq olmalıdır. Yəni vətəndaşların təzyiqləri lazımdır ki, hakimiyyətin bu addımının mahiyyəti üzə çıxsın».


İsa Qəmbər

## İsrail Musayev: «Korrupsiyanın açarı nəhənglərin əlindədir...»


Mübariz Əhmədoğlu

**«Panorama» verilişində jurnalist İsrail Musayev və politoloq Mübariz Əhmədoğlu hökumət orqanlarının özünütənqid mövzusunda keçirilən son toplantılarını şərh ediblər.**

Mübariz Əhmədoğlu:

**«BELƏ TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDI...»**

- İndi kimsə bu toplantıları müsəlman dünyasında baş verənlərlə müqayisə edirsə, o, haqlıdır. Yəni belə bir fikir ağla gələndir. Ancaq prosesin içində olan insanlar deyir ki, onsuz da Prezident Administrasiyasının rəhbəri vaxtaşırı belə toplantılar keçirirdi. Ola bilərdi ki, belə toplantılar mətbuata verilsin və ya heç verilməsin. Mən dəqiq bilirəm ki, belə tədbirlər planı hazırlanmışdı. Sadəcə, indi ola bilər ki, bu tələblər Ramiz Mehdiyevin dilindən daha qəti səslənib.

İsrail Musayev:

**«HAKİMİYYƏTİN İRADƏSİ OLMALIDIR...»**

- Mehman Əliyev deyir ki, bu, 1 milyard dollarlıq layihədir. Bununla razılaşmaq olar. Mübariz Əhmədoğlunun o fikri ilə də razıyam ki, Ramiz Mehdiyev bu tədbirləri plana uyğun keçirir. Ancaq o fikirlə razı deyiləm ki, Ramiz Mehdiyev inqilablara baxıb bu tədbirləri daha qətiyyətlə keçirir. Yalnız bir şey ola bilər - inqilablar Ramiz Mehdiyevgilin tədbirlərində müəyyən korrektələr edə bilər. Məsələn, adamların işdən çıxarılması. Bu, bir növ görüntüdür. Ancaq fikir verin, işdən çıxarılanlar sıravi məmurlardır. Nəhənglər ki var, korrupsiyanın açarı onların əlindədir, onlar çıxarılmır. Əslində, islahatlar üçün hakimiyyətin iradəsi olmalıdır...

***Babək Bəkir***


İsrail Musayev

# İslamın cəza sistemi ədaləti təmin edirmi?


Niyazi Mehdi

**İslamın öz cəza sistemi var. Müxtəlif əməllərə görə müxtəlif cəzalar - əllərin kəsilməsi, şallaqlamaq, daşqalaq etmək, asılmaq və s. nəzərdə tutulur. Lakin məsələyə müasir insan haqları kontekstindən yanaşanda, bu cür cəza sisteminin nə dərəcədə düzgün işlədiyini demək olar? Bunlar həqiqətənmi cinayətkarın islahına şərait yaradır və onu gələcəkdə belə işlərdən çəkindirir?**

İslamda cəza sistemi ilə bağlı bu və digər suallar AzadlıqRadiosunun «İnternyus Azərbaycan» təşkilatı ilə birgə hazırladığı «İslam və demokratiya» proqramında müzakirə olunub. Filosof Niyazi Mehdi razılaşır ki, istənilən cəmiyyətdə cəza sistemi qaçılmazdır. İnsanın hansısa hərəkətinə görə cəza, eyni zamanda həvəsləndirici sistemlər olmalıdır. Filosof hesab edir ki, şəriətdəki cəza növləri orta əsrlərin Avropasına nisbətən xeyli insani olub. Amma sonrakı dövrlərdə bu cəzalar öz aktuallığını itirib.

**ŞƏRİƏTDƏ CƏZA YANLIŞ VERİLƏ BİLƏR**

*Niyazi Mehdi hazırda İslam ölkələrində şəriətə uyğun cəzaların tətbiqini düzgün saymır. Çünki onun fikrincə, bu ölkələrdə Avropadakına uyğun ədalətli məhkəmə sistemi, günahkarın tapılması üçün zəmanət yoxdur. Deməli, cəzalar da yanlış verilə bilər:* «Türkiyə və bəzi ölkələri çıxmaq şərtilə biz İslam ölkələrinin hansında yüksək səviyyəli məhkəmə mədəniyyətini görə bilərik? Qərbdə insanın günahını sübut etmək üçün nə qədər əlləşirlər. Bəs İslam aləmində hansı yüksək kriminoloji işlər aparılır ki, onların müəyyən etdiyi cinayətkarlara uyğun cəzalar verilsin?».

**QOLU KƏSİLƏN ADAM BİR DƏ OĞURLUQ ETMƏYƏCƏK?**

Professor deyir ki, çoxlarında ölüm cəzası olmayan yerdə cinayətlərin baş alıb gedəcəyi kimi yanlış təsəvvür formalaşır. Amma elə Azərbaycanı misal göstərən Niyazi Mehdi qeyd edir ki, hazırda respublikada ölüm cəzasına layiq olan cinayətlər sovet dövründəkinə nisbətən heç də çox deyil.

**İSLAMIN CƏZA SİSTEMİ DÖVR ÜÇÜN MÜTƏRƏQQİ OLUB**


Şahin Həsənli

*«Mənəvi Dünya» İctimai Birliyinin sədri Şahin Həsənli də cəzaların zəruriliyi fikri ilə razılaşır. O belə düşünür ki, hər kəsi cəzalarla islah etmək mümkündür. Amma deyir ki, cəzaların növü mübahisə predmeti ola bilər:* «İslamın cəza sistemi o dövr üçün mütərəqqi sistem olub. O zamankı yarımvəhşi dövrdə hüquqi sistem qurulması çox ciddi bir məsələ idi».

**MÜASİR ALİMLƏR DAŞQALAQ CƏZASINA QARŞIDIR**

*Ş.Həsənli deyir ki, hazırda şəriətin cəzaları ilə bağlı müxtəlif məzhəblər arasında, hətta eyni məzhəblərin alimləri arasında da fikir ayrılıqları olur. Bəziləri hesab edir ki, zaman keçdikcə, bu cəza növlərinə yenidən diqqət yetirmək lazımdır:* «Məsələn, müasir alimlər daşqalaq cəzasını məqbul hesab etmirlər. Ümumiyyətlə, ölüm hökmü ilə bağlı da mübahisələr gedir. Düzdür, İslam ölüm hökmünü cəza növü kimi qəbul edir. Amma İslamın bu cəzanın tərəfdarı olduğunu iddia etmək düzgün deyil».

**BƏZİLƏRİ 100-Ə QƏDƏR, BƏZİLƏRİ İSƏ CƏMİ 7 BÖYÜK GÜNAH OLDUĞUNU DEYİR**

*Ş.Həsənli deyir ki, şəriətə görə, böyük günahların cəzası – ölüm hökmü olur. Bunların sırasına zina, oğurluq, qanunsuz cinsi münasibət, dövlətə qarşı cinayətlər və s. daxil edilir. Amma hazırda hansı növ əməllərin böyük günah sayılacağına dair də mübahisələr aparılır. Hətta İranın özündə belə bəzi ruhanilər dünyəvi cəza növlərindən istifadə etməyə çağırırlar:* «Bəziləri 100-ə qədər böyük günah siyahısı tutub. Bəzisi bu cür günahların sayının, sadəcə, 7 olduğunu düşünür».

Cəzalardan sui-istifadə hallarına gəlincə, Ş.Həsənli hesab edir ki, bu, yalnız İslam dövlətlərində deyil, dünyəvi dövlətlərdə də mövcuddur. İslam alimlərinə istinad edən ilahiyyatçı deyir ki, İslamda yalnız dəyərlər toxunulmaz qala bilər, cəzaları isə yenidən müzakirə etmək olar.

***İlkin Məmmədov***

# Mobil telefonlar müsəlman qızları "bihəya" edir?



**Hindistan Müsəlmanları Şurası bu həftənin bazar ertəsi gənclərin mobil telefonlardan istifadəsiylə bağlı fətva verib. Hindistan mediası, məsələn, İndian Express-də yayılan xəbərə görə, şura gənclərin mobil telefondan istifadəsinin əleyhinə çıxır. Xüsusilə də qızların. Bildirir ki, mobil telefonlar istifadəçilərin "utanmaz", "həyazıs" olmasına yol açır.**

Fətvada deyilir ki, "valideynlər əmin olmalıdırlar ki, onların uşaqları, xüsusilə də qızları mobil telefonlardan istifadə etmir. Çünki bu istifadə onları "bihəya" edir. Şuranın rəhbəri Movlana Taukir Raza bildirib ki, müsəlman ailələri bu xəbərdarlığa əməl etməlidirlər. Raza əlavə edib ki, bu fətva qız uşaqlarının təhsil almasının, dünyagörüşünün əleyhinə yönəlməyib, çünki şura qızların təhsilinə böyük önəm verir.

# Saatı 2 manata naturaçı...



Romada Milli Muzeydə saxlanan Venera heykəli

**Onlar özlərini hamıdan gizlətməyə çalışırlar. Onları tapmaq və söhbətləşməyə yola gətirmək üçün mənə günlər lazım oldu... Naturaçılar işlərinə Azərbaycanda «pis baxıldığını» deyib müsahibə verməyə meyil göstərmirdilər. Naturaçı – rəssama, heykəltəraşa, fotoqrafa və digər sənətçilərə poza verən modeldir. Onlar geyimli və ya çılpaq olur. İncəsənət məktəblərində tələbələri naturayla təmin edən ayrıca şöbə də fəaliyyət göstərir.**

**NATURA SƏNƏTİNƏ QEYRİ-*CİDDİ YANAŞIRLAR***

*Rəssamlıq Akademiyasında naturaçıların iş cədvəlində daha çox rus qadınlarının adları gözə dəyirdi. Art-menecer Fəridə Allahverdiyeva deyir ki, Azərbaycanda natura sənətinə qeyri-ciddi yanaşma var, buna görə də hazırda azərbaycanlı qadınların sayı azdır:* «Əksər qadınlar milliyyətcə azərbaycanlı olanlar deyil. Ruslar və yəhudi qadınlar üstünlük təşkil edir. Azərbaycanlı qadınlar çox azdırlar və onlar gizliliyə daha meyillidirlər. Rus qadınlar arasında Sovet dövründən naturaçılıq edən qadınlar var ki, onlar buna sənət kimi yanaşırlar».



Rəna Xudatzadə

**HƏQARƏTDƏN QAÇMAĞIN YOLU...**

*Rəssamlıq Akademiyasında fiqur kimi dayanmağa gələn qadınların əksəriyyəti özlərini buranın tələbəsi kimi qələmə verirlər. Bunu əlavə suallardan, həqarətli baxışlardan və xüsusi təkliflərdən qaçmağın ən asan yolu hesab edirlər. Rəna Xudatzadə Opera və Balet Teatrının aktrisasıdır, Rəssamlıq Akademiyasında geyimli naturaçı işləyir. Bəzən fərdi naturaçılıq da edir. O öz işini ailəsindən gizlətmək ehtiyacı görmədiyini deyir:*

«Mən halal pul qazanıram, burda nə var ki? Bilirsiz, mən kimə deyirəmsə natura işləyirəm, o dəqiqə soruşurlar: Çılpaq? Mən bunu gizlətmirəm, bu mənim üçün çox böyük şərəfdir. Mən özümü orda çox gözəl insan hiss edirəm. Model kimi hiss edirəm özümü. Bəlkə də həyatda belə hiss etmirəm».

**MENTALİTET İCAZƏ VERMİR**

*Heykəltəraş Elvin Nəbizadə Rəssamlıq Akademiyasının 3-cü kurs tələbəsidir. Deyir ki, Azərbaycanda naturaçılarda çəkingənlik var:* «Biz onlara material kimi baxırıq. Bizim naturalar da bunu hiss edirlər, ona görə də hər hansı konflikt, qeyri-ixtiyari hərəkətlər görünmür iş prosesində. Çəkinməyə heç bir əsas yoxdur».

**HƏKİMDƏN UTANMADIĞI KİMİ RƏSSAMDAN DA UTANMIR**

*Sürrealist rəssam Əli Davudov 8 ildir Rəssamlıq Akademiyasının tələbəsidir, hazırda aspirantdır. Onun fikrincə, proporsiyaları gözəl olan qadın, atletik bədən quruluşu olan kişiləri çəkmək daha uyğundur. Amma Azərbaycan cəmiyyətini nəzərə alaraq, rəssamların tələbini ödəyən gözəl qadınlar naturaçılar arasında azlıqdadır:* «Çevrəyə girəndə isə həkimlərdən necə utanmırlarsa, rəssamlardan da utanmırlar. Çünki emalatxanaya girdin, fırçanı əlinə aldın, natura artıq qadın obyekti kimi olmur. Sırf ona yaradıcı yanaşırsan, şəhvət hissi ilə baxmırsan».

Naturaçı Rəna Xudatzadə 4 ildir naturaçıdır. Onun öz işindən yeganə narazılığı az maaşıdır: saatına 2 manat ödəniş alır. Bəzən 4 saat tərpənmədən eyni pozada dayanmaqdan əzələləri keyiyir, amma işindən bezmədiyini deyir. Bir də onu deyir ki, kaş ki Azərbaycanda naturaçılara bu münasibət dəyişə...

***Durna Səfərli***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**"25 yaşlı qocalar Azərbaycan ədəbiyyatına lazım deyil"**



**"Bizim hamımızı heyvani qorxu birləşdirir"**




**Sevinc Çılğın öndə**



**Çingiz Abdullayev piratlara qarşı mübarizəyə başlayır**



Seymur Baycan: **Azərbaycanda ziyalı problemi**

# «Savadsızam, çünki istədiyi pulu verməmişəm»



**Qaxın Almalı kənd orta məktəbinin müəlliməsi Nailə Yolçuyeva AzadlıqRadiosunun "Qaynar xətt"inə çalışdığı məktəbin direktoru Müzəffər Səfərovdan şikayət edib. Deyir ki, Müzəffər Səfərov məktəbə rəhbər təyin olunandan onun və eyni məktəbdə riyaziyyat müəllimi işləyən həyat yoldaşının gününü göy əskiyə büküb. Direktorla müəllimlər arasında buz yaradan səbəb nədir, şikayətçidən eşidək:**

**DİREKTORU QƏZƏBLƏNDİRƏN İKİ SƏBƏB**

- Məktəbdə riyaziyyat müəlliməsi işləyirəm. Həyat yoldaşım da riyaziyyat müəllimidir. Keçən il yeni məktəb binası istifadəyə verildi. Bina təzə istifadəyə veriləndə, bizdən məktəbin tərtibatı üçün müəyyən məbləğdə pul istədilər. Biz o pulu verə bilmədik, hər şey bundan başlandı. Eyni vaxtda məktəbə yeni direktor təyin olunmuşdu, Müzəffər Səfərov. Bizim məktəbdən əvvəl Qorağan kənd orta məktəbində direktor işləmişdi. Özü də riyaziyyat müəllimidir. Təsəvvür edin, onsuz da 13 sinifə 6 riyaziyyat müəllimi var idi. Hərəyə 10-12 saat dərs düşürdü. Əlavə bu da gəldi məktəbə.

Nailə Yolçuyeva deyir ki, direktorun onlarla qərəzçiliyinin səbəblərindən biri də həyat yoldaşı ilə onun Müzəffər Səfərovun məktəbə qədəm basmasına etirazları ilə əlaqəlidir.

**ETİRAZ VƏ TÖHMƏT**

- Bundan sonra direktor hər gün dərslərimdə oturdu, təzyiqlər başlandı, boğaza yığıldım. İcra hakimiyyətinə, Təhsil Nazirliyinə müraciətlərim də cavabsız qaldı. Mən şikayət etdikcə direktor da mənə töhmət, xəbərdarlıq yazırdı. İki dəfə töhmət aldım, pulumdan tutuldu. İl yarımdır dərslərimiz 13 saata endirilib.

**«MÜƏLLİMƏ SAVADSIZDIR »**

*Məktəbin direktoru Müzəffər Səfərov Nailə Yolçuyevanın dərs saatlarının azaldılmasını belə izah edir:*

- Elə bir problem yoxdur, sadəcə olaraq, keçən il 21 sinif komplekti var idi, bu il 18 sinif komplekti var, 3 sinif komplektinin azalması ilə əlaqədar Nailə Yolçuyevanın dərs saatları azaldılıb.

*Direktor müəlliməni savadsızlıqda ittiham edir:*

- Müəllimənin özünün dərslərində məktəb rəhbərliyi iştirak edib, xeyli nöqsanlar aşkar edilib, müəlliməyə deyilib ki, həmin nöqsanlar aradan qaldırılsın. Şagirdlərin yanına dərsə hazırlaşıb gəlmək lazımdır. Riyaziyyat müəlliməsidir, əsas aparıcı fənlərdən biridir. Adi yazısında da 5-6 səhv buraxır.

**«MƏN MİSİR MƏRDANOVA, MEHRİBAN ƏLİYEVAYA MÜRACİƏT EDİRƏM»**

*Nailə Yolçuyeva isə deyir ki, 34 il həyat yoldaşı məktəbdə riyaziyyat müəllimi işləyib, 28 il də özü. İnstitutu fərqlənmə diplomu ilə bitirib:* «Mən Misir Mərdanova, Mehriban Əliyevaya müraciət edirəm. Bu tikdirdikləri məktəblərə baxsınlar, görsünlər oradakı iş şəraiti kimlərə xidmət edir. Neçə illər işləyən müəllim, gör başıma nə oyunlar açırlar, savadsızam, nə var – nə var yığdıqları 50-100 manatı verə bilməmişəm».

# «Dərmana 500 manat pul vermişəm»

***1 saylı xəstəxananın həyətində əlində dərman qutusu tələsən vətəndaşı saxlayıram. Həkimlər həyat yoldaşını əməliyyat masasına uzadıb dərmanı gözləyirlər. Tələsdiyindən adını da demir.***

**-Dərmanı özünüz almısınız?**

-Bəli, bəli...

**-Axı burda pulsuz verilməlidir dərmanlar...**

-Yalan söhbətdir.

**-Neçəyə almısınız dərmanı, nə qədər pulunuz çıxıb?**

-500 manat pul vermişəm dərmana...

Səhiyyə naziri Oqtay Şirəliyev bir neçə gün əvvəl keçirdiyi müşavirədə bildirmişdi ki, «xəstəxanaların kifayət qədər dərman preparatları və sarğı materialları ilə təmin olunmasına baxmayaraq, xəstələrə, onların yaxınlarına hələ də dərman aldırmaq hallarına rast gəlinir»... Nazir bu halların qarşısının alınması ilə bağlı göstəriş də verib.

1 saylı xəstəxana və K. Fərəcov adına Elmi Tədqiqat Pediatriya İnstitutunun qarşısında vətəndaşlarla dialoqumuz isə "köhnə hamam, köhnə tas"dan xəbər verir. 1 saylı Xəstəxananın Yoluxucu Xəstəliklər Şöbəsinin reanimasiya otağının qarşısına toplaşan 30-a yaxın şəxs 22 yaşlı Rəşad Abdulovun qohumlarıdır. Deyirlər ki, həkim səhlənkarlığı ucbatından Rəşadın həyatı təhlükədədir. *Nənəsi Nisəxanım Abdulova:* «Oktyabrın 6-da it qapıb onu. Gedib həkimə. Həkim yazıb verib, iynə vurub, göndərib onu sahə həkiminə. O da baxıb deyib ki, heç nə yoxdur, çıx get. Gəldi evə, 3 ay oturdu. İndisə 3 gündür həmin qolu quruyub. Başladı «sudurqa». Təcili yardım çağırdıq, həkim dedi ki, quduzluq əlaməti var. Gətirdik bura, burda da aldılar bizdən saldılar reanimasiyaya. Bir həftə vaxt veriblər bizə. Bir həftəyəcən uşaq öləcək... »



Mehriban Əliyeva

**- İynə-dərmanını kim alıb onun?**

- «Özümüz. Kim alacaq? Nə iynə-dərman vururlar. Heç nə. Bir dənə «Demidrol» vururlar. Bir də sistem. Ancaq yatızdırırlar. Başqa iynəsi, dava-dərmanı, heç nəyi yoxdur. Heç nə vurmurlar».

*Şöbənin əməkdaşıyla danışmaq cəhdimiz boşa çıxır:* «Bir dəqiqə gözləyin. Amma belə gəlməzlər bura».

# 100-ü yenidən aşan neft



**London birjasında «Brent» tipli neftin 1 barelinin qiyməti $100-lıq psixoloji həddi növbəti dəfə aşdı. Azərbaycan neftinin qiyməti isə $102-ı da ötdü. Son 3 ildə neft dünya bazarlarında 2-ci dəfə belə sıçrayış edirdi: ilk dəfə 2008-ci ilin fevral ayının sonuncu günü neft $100-lıq həddə çatmış və bu pillədən həmin ilin avqustun sonlarınadək enməmişdi. İndi isə yenidən yüksəliş ovqatındadır.**

**BAHALI NEFT YAXŞIDIR, YOXSA PİS?**

Buna «kağız-kuğuzla» işləyən məmur nöqteyi-nəzərindən baxsaq, gəlirinin 87%-nin sırf xam neftdən (97%-i isə neft, neft məhsulları və qaz) çıxaran ölkə üçün qiymətlər nə qədər yüksəkdirsə, ölkənin gəlirləri də çoxalacaq. Gəlirin çox olması ümumi daxili məhsulun artması deməkdir.

Ancaq bu, makroiqtisadi göstəricilərin yaxşılaşdırılmasına dəlalət edən amildir. Yaşayış reallıqları isə başqadır. Yəni adambaşına orta gəlirin ayda 320 manat olması hələ o demək deyil ki, işləyən hər bir Azərbaycan vətəndaşının qazancı bu qədərdir. Çox güman ki, elə bu səbəbdən də Dövlət Statistika Komitəsi öz hesabatlarında açıqlamır ki, bizim işləyənlərimizin neçə faizi orta əməkhaqqı qədər məvacib alır (müəllimlər, həkimlər, elm adamları, icra qurumlarında çalışan sıravi işləyənlər, özəl xidmət sahəsində gündə 10 saat işləyənlər və s. kimi milyondan çox vətəndaşımız). Elə məsələ də burada qəlizləşir – gündəmə neft gəlirlərinin qeyri-bərabər bölünməsi gəlir.

**BÖLÜNMƏNİN AZƏRBAYCAN MODELİ**

Azərbaycanın neft gəlhagəli 2006-cı ildən başlayıb. Son 5 ildə Neft Fonduna 36 mlrd. manatdan çox vəsait daxil olub və bunun 18 mlrd. 32.9 mln. manatı xərclənib. Bunun hara və necə xərclənməsini artıq çoxları bilir. Ancaq əsası odur ki, onlar nə dərəcədə səmərəli xərclənib. Nazirliklərin inzibati binalarının neçə dəfə təmir edilməsi, onların bahalı inventarlarının neçə dəfə dəyişdirilməsi və hətta yeni-yeni nə qədər inzibati binaların tikilməsi göz qabağındadır.

Əvvəllər ikibloklu 120 mənzilli (adətən belə binalarda 600-ə yaxın insan yaşayır) 16 mərtəbəli yaşayış binasının tikintisi 3-4 milyon dollara başa gəlirdi. Ancaq dövlət 200 nəfərlik nazirlik aparatı üçün 20-30 milyon manata inzibatı bina tikirdi, baxmayaraq ki, nə torpaq pulu verirdi, nə də tikintiyə mane olmamaq üçün kiməsə «şirinlik». Adambaşına orta gəlirin ayda 320 manat olması hələ o demək deyil ki, işləyən hər bir Azərbaycan vətəndaşının qazancı bu qədərdir.

...Demək, məsələ neftdən gələn gəlirlərin miqdarında deyil, əsas məsələ onun ədalətli bölgüsü və səmərəli istifadəsindədir.

**Yazının davamını AzadliqRadiosu.az saytında oxuyun.**

# AzadlıqRadiosunda verilişlər:

_Unutmayın:_ Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra**
**Can Bakı**
**Xüsusi reportaj**
**Qaynar xətt**
**Həmyerli**
**Tanınmışlar**
**Şəffaflıq**
**14-24**
**İz**
**Panorama**
**Qafqaz Qovşağı**
**Oxu zalı**
**Hər kəsin haqqı var**
**Təbriz Ekspress**

## İşdən sonra

## “İşdən sonra”ya qulaq asın

Debatların, açıq müzakirələrin çatışmadığı bir zamanda “İşdən sonra” verilişi ən aktual mövzular üzrə debatlara, müzakirə və söhbətlərə həsr olunur.

Hər gün saat 17-dən 19-dək “İşdən sonra”nı canlı dinləyin. Canlı dinləyə bilmədikdə onun səs yazılışına sonradan AzadliqRadiosu.az saytından qulaq asa bilərsiniz. Hər bir veriliş haqda xülasəni də buradan oxumaq olar.

# “Simsiz teleqraf”

**BU SUYA GÖRƏ PUL ÖDƏNİLMƏLİDİRMİ?**



**02.02.2011. Yükləyib: Əlibəy Zeynalov**

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:** efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## 24 saat

**DİQQƏT! DİQQƏT!**

AzadlıqRadiosunun 13° "HOTBIRD 8" peykində göstəriciləri:

**POLARIZATION:** Vertical
**FREQ:** 12.226 GHZ
**FEC:** 3/4
**NEW SYMBOL RATE:** 27.5 MS/s

TÜRKSAT $42^{0}$ E

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Web-TV




**AZADLIQ-TV-nin canlı yayım saatları**

Hər gün 17:05-19:00-dək
«İşdən sonra» proqramı

Çərşənbə günləri: 9:00-10:00-dək
«Can Bakı» proqramı

Cümə axşamları: 10:05-11:00-dək
«Pen Club» - ədəbiyyat proqramı

## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar xətt:** 436-77-41
**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz